

# “Hazırda məhkəmə sisteminə rəhbərlik edən şəxslərlə islahat aparmaq olmaz”

*Prezident İlham Əliyevin aprelin 3-də imzaladığı “Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında” Fərmanı geniş müzakirəyə səbəb olub. İctimaiyyətdə bu Fərmandan sonra məhkəmə sistemindəki ədalətsizliklərə son qoyulacağına inam yaransa da, bəzi hüquqşünaslar məhkəmə instansiyalarının hazırkı rəhbərlərinin vəzifə səlahiyyətlərini davam etdirdikləri müddətdə islahatların müsbət nəticə verəcəyinə inanmadıqlarını söyləyirlər.*

Səh.8

24 səhifə
Həftəlik qəzet

# UNİKAL

№23 (1962) 20 aprel 2019-cu il

Qiyməti 40 qəpik

Quruсusu: Asəf Rzayev www.unikal.org unikal-1@mail.ru



# Samir Nuriyevdən ciddi narazılıq

## Bu sahədə fəaliyyət göstərən iş adamları şikayətçidirlər

*Azərbaycanda tikinti sektoru ən problemli sahələrdən biri sayılır. Elə bunun nəticəsidir ki, 2018-ci ildə Prezident Administrasiyasına vətəndaşlar 100-dən çox tikinti şirkəti tərəfindən çoxmərtəbəli yaşayış binalarının inşasında müvafiq norma və qaydalara, həmçinin müqavilə şərtlərinə riayət edilməməsindən, bəzi şirkətlərin mənzilləri 2 və daha artıq şəxsə satmasından, razılığa gəlinmədən, kompensasiyalar verilmədən söküntü işlərinə başlanılmasından, binaların təhlükə törədəcək dərəcədə yaxın məsafədə tikilməsindən şikayət ediblər.*

Səh.12

Səh.7



# Oqtay Şirəliyev səhiyyəni çökdürüb

## “Məhkəmələrdə korrupsiya problemləri özünü qabarıq şəkildə göstərir”



*Uzun müddətdir ölkədə mövcud olan durğunluq sanki müəyyən dəyişiklik dönəmi ilə əvəzlənir. Xüsusən də bu ilin ötən dövründə baş verən dəyişikliklər xüsusi qeyd oluna bilər. Sosial-iqtisadi sahədəki yeniliklər, müəyyən kadr dəyişiklikləri, məhkəmə-hüquq sistemində islahatların aparılmasına start verilməsi ölkədə yeni bir dönəmə qədəm qoyulduğunu düşünməyə əsas verir.*

Səh.4

## Qarabağla bağlı yeni oyun hazırlanır



*Məlum olduğu kimi, aprelin 15-də Azərbaycan və Ermənistan XİN rəhbərləri arasında Moskvada görüş keçirilib. Əvvəlcə danışıqlar üçtərəfli formatda - Rusiya xarici işlər naziri Sergey Lavrovun iştirakı ilə keçirilib. Daha sonra ATƏT-in Minsk Qrupunun ABŞ və Fransadan olan həmsədrləri, həmçinin ATƏT-in qüvvədə olan sədrinin şəxsi nümayəndəsi də onlara qoşulub.*

Səh.13

## Müsavatda daxili qarşıdurmanın pərdəarxası




*Müxalifət düşərgəsindəki narazılıq getdikcə genişlənməkdə davam edir. Bir müddət öncə Xalq Hərəkatında qarşılıqlı ittihamlar müşahidə olundu. İndi isə Müsavat partiyası daxilində qarşıdurma yaranıb. Belə ki, Müsavat partiyasının tanınmış üzvləri bir-birini təhqir edib.*

Səh.5